# Prezident İlham Əliyevdən ölkəmizin bədxahlarına açıq mesaj



**Dövlət başçımızın istənilən nitqi, müsahibəsi, imzaladığı sənədlər həm dostlarımız, tərəfdaşlarımız, həm də bədxahlarımız tərəfindən maraqla qarşılanır və diqqətlə öyrənilir. Dostlarımız gənc müstəqil Azərbaycan dövlətinin nailiyyətlərinə sevinib, sevincinə şərik olurlarsa, bədxahlarımız istənilən uğurumuza kölgə salmaq, şər, böhtan, iftira kampaniyasına start verməyə çalışırlar. Dövlət başçımızın ötən il dekabrın son günlərində Rusiya Federasiyasının "Rossiya-24" televiziya kanalına verdiyi müsahibə də izləyicilərin hər iki qütbündə böyük maraq oyatmışdır.**

Təbii ki, müsahibədə əsas məsələ Azərbaycan --Rusiya ikitərəfli münasibətləri və regiondakı digər məsələlər idi. Ancaq yaşlı nəslin nümayəndəsi olaraq məni daha çox maraqlandıran məqam cənab Prezidentin müsahibəsində Böyük Vətən müharibəsi deyilən qanlı illərdə Azərbaycan xalqının nümayiş etdirdiyi qəhrəmanlıq və fədakarlıq barədə dedikləri idi.

Cənab Prezident xatırlatdı ki, biz Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə ehtiramla yanaşırıq: "Azərbaycan bizim ümumi Qələbəmizə böyük töhfə verib. 120-dən çox Sovet İttifaqı Qəhrəmanı əslən Azərbaycandandır. Bizim müəssisələrdə gecə-gündüz hərbi texnika, o cümlədən məşhur "Katyuşa" raketləri istehsal edilirdi. Ona görə ki, həmin illərdə Azərbaycan sənayesi inkişaf etmişdi. Həmçinin Sovet ordusu üçün neftin 70 faizini, benzinin 80 faizini, sürtkü yağlarının 90 faizini Azərbaycan təmin edirdi, bunlar olmasa idi, müharibədə qalib gəlmək mümkün olmazdı. Biz bilirik ki, Hitler ordusunun çox hücumlarının uğursuz olması yalnız yanacağın vaxtında gətirilməməsinin nəticəsi idi".

Dövlət başçımız ötən ilin oktyabr ayında – Aşqabadda MDB-nin sammitində danışdığı bir faktı rusiyalı televiziya tamaşaçılarının da nəzərinə çatdırdı: "Məşhur bir kadrda Hitlerə üzərində alman dilində "Xəzər dənizi" sözləri yazılmış tort gətirirlər. Orada Xəzər dənizinin sərhədlərində qara rəngli əridilmiş şokolad tökülüb. Hitler svastikanı götürüb düz Bakı sözü yazılan yerə qoyur. Onun planları belə idi. Bakının tutulması Sovet İttifaqı üçün fəlakət olardı. Ona görə ki, Sovet İttifaqı mühüm bir komponentdən məhrum edilərdi. Bizim vətəndaşlar üçün isə bu, ona görə fəlakət olardı ki, bütün neft quyuları minalanmışdı. Əgər faşistlər Bakını tutmağa nail olsaydılar, hər şey havaya uçar, yüz minlərlə insan həlak olardı. Buna görə də Böyük Vətən müharibəsi və Vətən uğrunda həlak olanlar haqqında xatirə – Azərbaycandan müharibədə iştirak etmiş 600 mindən çox döyüşçünün 300 mini həlak olub -- bizim üçün müqəddəsdir. Biz bunu xatırlayırıq və ehtiramla yad edirik".

Fikrimizcə, cənab Prezidentin bu məsələni yüksək səviyyədə qabartması, təkcə faşizm təmsilçilərini qəhrəmanlaşdıran Ermənistana və onun havadarlarına deyil, eləcə də, dünyanın hər yerindəki bədxahlara verilən dərs idi.

*Telman HACIYEV,*
*fəlsəfə elmləri doktoru, professor, Əmək veteranı*

Xalq qəzeti 2020.- 8 yanvar.- S.6.